UOT 159.9

**Zabitə Mustafa qızı İsayeva**
*Sumqayıt Dövlət Universitetinin*
*Pedaqogika və psixologiya kafedrasının baş müəllimi*
*https://orcid.org/0009-0004-0124-133X*
https://doi.org/10.69682/azrt.2024.91(1).265-267

# KREATİVLİK ANLAYIŞI VƏ ONUN PSİXOLOJİ MƏZMUNU

**Забита Мустафа гызы Исаева**
*старший преподаватель кафедры педагогики и психологии*
*Сумгаитского Государственного Университета*

# ПОНЯТИЕ КРЕАТИВНОСТЬ И ЕГО ПСИХОЛОГИЧЕСКОЕ СОДЕРЖАНИЕ

**Zabita Mustafa Isaeva**
*Sumgayit State University*
*Senior Lecturer Department of Pedagogy and Psychology*

# THE CONCEPT OF CREATIVITY AND ITS PSYCHOLOGICAL CONTENT

**Xülasə.** Məqalədə kreativliyin inkişafının psixoloji mahiyyətini və məzmununu müəyyənləşdirmək üçün müasir yanaşmaların təhlili edilir. Kreativlik yaradıcılıq qabiliyyəti kimi xarakterizə olunur və onun hər bir insana xas olan xüsusiyyəti açıqlanır. Məqalədə şəxsiyyətin yaradıcı inkişafı probleminə kreativlik anlayışını müəyyən edən müxtəlif konsepsiyaların qarşılıqlı təsirinin ilkin mövqeləri əsaslandırılmışdır.
***Açar sözlər:*** *kreativlik, kreativlik konsepsiyası, yaradıcılıq, intellekt, intellekt komponentləri*

**Резюме.** В статье проводится анализ современных подходов к определению психологической природы и содержания развития творчества. Креативность характеризуется как способность творить. Таким образом раскрывается характерная особенность каждого человека. В статье обоснованы исходные положения взаимодействия различных понятий, определяющих понятие творчества, с проблемой творческого развития личности.
***Ключевые слова:*** *творчество, понятие творчества, креативность, интеллект, компоненты интеллекта*

**Summary.** The article analyzes modern approaches to determining the psychological nature and content of creativity development. Creativity is characterized as the ability to create and its characteristic feature of each person is revealed. The article substantiates the starting points of the interaction of various concepts that define the concept of creativity with the problem of creative personal development.
***Keywords:*** *creativity, concept of creativity, creativity, intelligence, components of intelligence*

İnsanın fərdiliyi onun kreativliyi ilə sıx bağlıdır. Şəxsiyyətin kreativliyinin inkişafı xüsusi tədqiqat predmeti kimi özünəməxsus xüsusiyyətə malikdir: elmi təsvirdə kreativlik yaradıcılıq anlayışı və onun törəmələri (yaradıcılıq üçün ilkin şərtlər, ümumi və xüsusi qabiliyyətlər, potensial və s.) ilə eyniləşdirilir. Ona görə də, kreativlik anlayışının məzmunu ilə bağlı elmi araşdırmaları psixoloji baxımdan nəzərdən keçirmək və təhlil etmək məqsədəuyğundur. Yaradıcılıq psixologiyasında hazırda koqnitiv, psixometrik yanaşmalar, eləcə də mistik, motivasiyalı, sosial-şəxsi və digər yanaşmalar mövcuddur ki, onların əsasında kreativlik anlayışını müəyyən edən bir sıra konsepsiyalar işlənib hazırlanmışdır.

D.B. Boqoyavlenskinin konsepsiyasında yaradıcılıq situativ olaraq stimullaşdırılmamış fəaliyyət kimi nəzərdən keçirilir və şəxsiyyətin yaradıcı tipinə xas olan şəxsiyyətin kreativ fəal-

lığı anlayışına aparıb çıxarır. Alimin fikrincə, yaradıcılığın əsas göstəricisi kimi kreativlik özündə idraki və motivasiyalı komponenti daxil edən intellektual fəallıqdır [2]. C. Gilfordun, E.P. Torrensin kreativlik konsepsiyasına əsasən, kreativlik universal idraki yaradıcılıq qabiliyyəti kimi intellektdən asılı olmayan müstəqil amildir. C. Gilford transformasiya və implikasiya əməliyyatları ilə yanaşı divergensiya əməliyyatını ümumi yaradıcılıq qabiliyyəti kimi kreativliyin əsası hesab etmiş və kreativliyi stereotipik düşüncə tərzindən imtina etmək bacarığı kimi xarakterizə etmişdir.

Tədqiqatçı kreativliyin altı parametrini müəyyən etmişdir: 1) problemləri aşkar etmək və qoymaq bacarığı; 2) yeni fikir yaratmaq bacarığı – səlistlik; 3) müxtəlif ideyalar yaratmaq bacarığı – çeviklik; 4) ictimai baxışlardan fərqlənən ideyalar fikirləşmək, stimullara qeyri-standart cavab vermək bacarığı – orijinallıq; 5) detallar əlavə etməklə obyekti təkmilləşdirmək qabiliyyəti; 6) problemləri həll etmək bacarığı, yəni təhlil və sintez etmək qabiliyyəti.

Bu proqramın gələcək inkişafı E.P. Torrensin fikrincə, kreativliyə aşağıdakılar daxildir: çətinlikləri, problemləri, informasiyadakı boşluqları, çatışmayan elementləri hiss etmək, bu çatışmayan elementlərlə bağlı fərziyyələr irəli sürmək, onları yoxlamaq və qiymətləndirmək; onların yenidən yoxlanılması, nəticələrin elanı.

Nəticə etibarilə, kreativlik yaradıcılığa qabillik, problemləri və ziddiyyət- ləri tanımaq bacarığı, stereotipik düşüncə tərzinin rədd edilməsi; yeni ideyalar yaratmaq və problemləri həll etmək üçün innovativ yollar tapmaq bacarığı; situasiyanın çatışmayan elementləri ilə bağlı fərziyyələr tərtib etmək bacarığı kimi nəzərdən keçirilir.

Yaradıcılıq psixologiyasında E.P. Torrensin "intellektual hədd nəzəriyyəsi" daha geniş şəkildə təbliğ olunur: IQ (intellekt əmsalı) 115-120-dən aşağıdırsa, kreativlik və intellekt bir amilin tərkibinə daxildir; 120-dən yuxarı olarsa IQ ilə kreativlik intellektdən asılı olmayan bir amilə çevrilir.

R. Sternberqə görə, kreativlik məntiqi risklərə getmək qabiliyyəti, maneələri dəf etməyə hazırlıq, daxili motivasiya, qeyri-müəyyənliyə tolerantlıq, başqa- larının fikirlərinə müqavimət göstərmək istəyidir. Yaradıcı mühit yoxdursa kreativliyin təzahürü də mümkün deyil. R. Sternberqin fikrincə, yaradıcı təzahürlər bir çox amillərlə müəyyən edilir ki, buraya aiddir: qabiliyyət kimi intellekt, bilik, düşüncə tərzi, fərdi xüsusiyyətlər, motivasiya, xarici mühit. Eyni zamanda, intellekt komponentləri də yaradıcılıq üçün xüsusi əhəmiyyət kəsb edir: 1) *sintetik qabiliyyət* (problemin yeni baxışı, adi şüurun hüdudlarını aşmaq); 2) *analitik qabiliyyət* (gələcəkdə inkişaf etdirilməyə layiq ideyaları müəyyən etmək); 3) *praktik qabiliyyətlər* (bir fikri başqalarını inandırmaq) [5].

T.V. Kornilova müəyyən etmişdir ki, kreativliyin intellektdən fərqli ümumi qabiliyyət və ya fərdi xüsusiyyət (şəxsi xüsusiyyət) kimi nəzərdən keçirilməsi yaradıcı təfəkkürün həyata keçirilməsində yaradıcılığa komponent, mərhələ və ya proseslərdən biri kimi baxılmasına qarşıdır. Tədqiqat zamanı əldə edilən məlumatlar göstərir ki, 1) qeyri-müəyyənliyə dözümlülük yaradıcılığı müsbət mənada proqnozlaşdırır, qeyri-müəyyənliyə dözümsüzlük isə yenitörəmələrin şiddəti ilə tərs əlaqəni nümayiş etdirir; 2) intellektual potensialın proqnozlaşdırıcı gücü miqyasına görə tolerantlıq və qeyri-müəyyənliyə dözümsüzlük kimi şəxsi keyfiyyətlərin yaradıcı məhsulunun yaradılmasına töhfə ilə müqayisə edilə bilər və s. [3].

Beləliklə, kreativlik fenomeninin tədqiqində yaradıcılıqla intellekt və şəxsiyyət xüsusiyyətləri arasındakı əlaqənin öyrənilməsi ilə bağlı istiqamət daha çox diqqət cəlb etmişdir. Kreativlik fenomeninin dörd aspekti var: yaradıcılığın həyata keçirildiyi *yaradıcı mühit* (sfera, sosial kontekst, yaradıcı məhsula tələbləri formalaşdıran struktur); *yaradıcı məhsul* (maddi və ya ideal məhsulun xüsusiyyətləri, onun keyfiyyət tərəfləri); *kreativlik prosesi* (yaradıcılıq prosesinin xüsusiyyətləri, onun qeydə alınması və təsviri); *yaradıcı şəxsiyyət* (kreativ insanı təsvir edən və yaradıcılığı əvvəlcədən müəyyən edən şəxsi xüsusiyyətlər).

D. Simpson ilk dəfə kreativlik anlayışını insanın stereotipik düşüncə tərzindən imtina etmək qabiliyyəti kimi istifadə etmişdir. Sonradan kreativlik daha yüksək düşüncə prosesi kimi qəbul olunmağa başladı. R. Mey hesab edirdi ki, yaradıcı proseslər irrasional deyil, fövqəl rasionaldır, intellektual, iradi və emosional funksiyaları özündə birləşdirir; onun üçün yaradıcılığın əhəmiyyətli göstəricisi problemin real həlli idi. E. Fromm kreativlik anlayışını insanları təəc-

cübləndirmək və öyrənmək bacarığı, qeyri-standart situasiyalarda həll yolu tapmaq bacarığı kimi tərif vermişdir ki, bu da yeni bir şey kəşf etməyə diqqət və öz təcrübəsini dərindən təhlil etmək və anlamaq bacarığı ilə izah olunur. Yaradıcılığın meyarı nəticənin keyfiyyəti deyil, yaradıcı məhsuldarlığı aktivləşdirən xüsusiyyətlər və proseslərdir. Həyata yaradıcı münasibət və davranış kreativliyi A.Q. Maslou, K.R. Rodjersin elmi tədqiqatlarında araşdırılmışdır. A.Q. Maslou kreativliyi şəxsiyyətin təbii xüsusiyyəti kimi müəyyən etmiş, özünüaktuallaşdırma dedikdə istedad, qabiliyyət, insan potensiallarından özünüreallaşdırma prosesi kimi tam istifadəni nəzərdə tuturdu. Kreativ imkanlar hər bir insanda mövcuddur, lakin əksər insanlar avtoritar mühitdə bu keyfiyyəti itirirlər.

Müəllif kreativliyi *ilkin* (əvvəlcə hər bir insana xas olan) – ilhamlı yaradıcılıq mərhələsinə və i*kinciliyə* (yaradıcılıq məhsulunun təfərrüatları və ona konkret forma verilməsi prosesi) ayırır. Kreativlik nəzəriyyəsinin mərkəzində A.Q. Maslounun motivasiya konsepsiyası durur ki, müəllif fərdin ehtiyaclarına əsaslanaraq onu müəyyənləşdirir: bir insan ehtiyaclar iyerarxiyasında nə qədər yüksələ bilirsə, o, daha böyük fərdilik və yaradıcı potensial nümayiş etdirəcəkdir [4].

K.R. Rodjers kreativliyi daxili qiymətləndirmə məkanı, yaradıcı fəaliyyətin xarici şərtlərini müəyyən edən yeni problemlərin həlli yollarını və yeni ifadə üsullarını kəşf etmək bacarığı kimi başa düşürdü. Yaradıcılıqla bağlı bir çox araşdırmaları nəzərdən keçirən F. Barron belə nəticəyə gəlmişdir: 1. Kreativlik yeni yanaşmalara olan ehtiyaca uyğunlaşma qabiliyyətidir. Bu, həyatda yeni bir şeyin mənalı daxil edilməsidir, baxmayaraq ki, proses şüursuz və ya qismən şüurlu ola bilər. Yeni uyğunlaşmalar adətən daha çox çeviklik və inkişaf potensialı ilə nəticələnir. 2. Yeni bir şey adətən insan tərəfindən həyata keçirilən prosesin nəticəsi olan məhsuldur. Kreativliyi üç aspektdə öyrənmək daha asandır: məhsul, proses, şəxs. 3. Bu yeni məhsulların, proseslərin və insanların xüsusiyyətləri onların yeniliyi, orijinallığı, bacarığı, etibarlılığı, ehtiyacları ödəmək qabiliyyəti, adekvatlığıdır. 4. Yaradıcı məhsullar müxtəlifdir. 5. Bir çox məhsullar proseslərdir, bəzi proseslər isə məhsuldur. İnsan isə eyni vaxtda həm məhsul, həm də prosesdir. Yeni məhsulun yaradılması yaradıcının şəxsiyyətindən və onun daxili motivasiyasının gücündən asılıdır [1].

Beləliklə, intellekt və kreativlik anlayışı müstəqil olub təkcə şəxsiyyət xüsusiyyətləri səviyyəsində deyil, həm də vahid idrak prosesi səviyyəsində bir-biri ilə bağlıdır.

**Problemin aktuallığı.** Kreativlik problemi psixoloqların həmişə diqqət mərkəzində olan məsələlərdəndir. Məqalədə problemin bu cəhəti alimlərin yanaşmaları baxımından təhlil edilir.

**Problemin elmi yeniliyi.** Məqalədə şəxsiyyətin yaradıcı inkişafı probleminə kreativlik anlayışını müəyyən edən müxtəlif konsepsiyaların qarşılıqlı təsirinin ilkin mövqeləri əsaslandırılmışdır.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar faydalana bilərlər.

**Ədəbiyyat:**


1. Barron F. Putting Creativity to Work // The Nature of Creativity / Sternberg R.J. (Ed.). Cambridge, – 1988. – p. 76-98.
2. Богоявленская Д.Б. Психология творческих способностей. – М., 2002. – 320 с.
3. Корнилова Т.В. Толерантность к неопределенности и интеллект как предпосылка креативности // Вопросы психологии. – 2010. № 5. – с. 3-13.
4. Маслоу А.Г. Дальние пределы человеческой психики / пер. с англ. А.М. Татлыбаевой. – СПб., 1999. – 432 с.
5. Стернберг Р., Григоренко Е. Инвестиционная теория креативности // Психологический журнал. – 1998. Т. 19. № 2. – с. 144-160


**E-mail:** Zabite66@box.az

**Rəyçilər:** *psix.ü.fəls.dok., dos.* **M.C. İsmayılova,**
*psix.ü.fəls.dok., dos.* **Q.V. Rəhimova**
**Redaksiyaya daxil olub:** 22.01.2024.